"Effektiv idarəetmə və makroiqtisadi göstəricilər" işçi qrupunun iclası

Protokol № 20

Bakı şəhəri *14 oktyabr, 2026-cı il*

İclasa sədrlik edirdi:

İşçi qrupun rəhbəri: Azər Ələsgərov – Mərkəzi Bankın baş direktoru.

İştirak edirdilər:

İşçi qrupu üzvləri:

Vüsal Şıxəliyev - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin İqtisadi islahatların monitorinqi, koordinasiyası və qiymətləndirilməsi sektorunun müdiri, Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın Katibliyinin rəhbəri;

Nihad Fərəcov – Maliyyə Nazirliyi Makroiqtisadi təhlil və fiskal proqnozlaşdırma şöbəsi, Ortamüddətli büdcə çərçivəsi və fiskal risklər sektorunun aparıcı məsləhətçisi;

Müşviq Bayramov – Azərbaycan Respublikası Dövlət Neft Fondunun İcraçı direktorunun müavinin müşaviri;

Vüqar Abdullayev – İqtisadiyyat Nazirliyinin Makroiqtisadi proqnozlaşdırma və təhlil şöbəsinin müdir müavini;

Elçin Güləliyev – Mərkəzi Bankın Pul siyasəti departamentinin direktor müavini;

Nərgiz Mehdiyeva – Maliyyə Nazirliyi Xarici Borcun İdarəedilməsi şöbəsinin aparıcı məsləhətçi;

Alidə Alpaşayeva - Dövlət Statistika Komitəsinin Milli hesablar və makroiqtisadi göstəricilər statistikası şöbəsinin müdiri müavini;

Cavid Nuruzadə – İqtisadiyyat Nazirliyinin Tarif-qiymət siyasəti şöbəsinin Təhlil və tənzimləmə sektorunun aparıcı məsləhətçisi;

İlahə Baxışova Tahirli - Mərkəzi Bankın Maliyyə məlumatlılığı və peşəkar inkişaf şöbəsinin rəisi;

Rövşən Cabbarov – Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Dövlət Ekoloji Ekspertiza Agentliyinin baş hüquqşünası;

Orxan Sadıqov - İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin Monitorinq və qiymətləndirmə şöbəsinin müdiri;

İşçi qrupun katibi: Məcidxan Vəliməmmədov – Mərkəzi Bankın Strateji və layihə idarəetməsi departamentinin, Təşkilati Proseslərin İdarəedilməsi şöbəsinin aparıcı mütəxəssisi.

İştirak etmədilər: Nuru Süleymanov – Dövlət Statistika Komitəsinin Milli hesablar və makroiqtisadi göstəricilər statistikası şöbəsinin müdiri;

Rövşən Camalov – Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin, Təbii inhisarlara dövlət nəzarəti şöbəsinin, Təbii inhisar və dövlət inhisarının tənzimlənməsinin təşkili sektorunun müdiri;

İnqilab Əhmədov - Avrasiya Hasilat Sənayesi Bilik Mərkəzinin direktoru, iqtisadçı ekspert;

Samir Əliyev - "İqtisadi Təşəbbüslərə Yardım" İctimai Birliyinin İdarə Heyətinin üzvü və departament rəhbəri.

Ramil Abbasov - "Spektr" Sosial-İqtisadi Araşdırmalar və İnkişaf İctimai Birliyinin İdarə Heyətinin sədri;

Fərid Baxşıyev - "Ekvita" şirkətinin partnyoru.

İclasın gündəliyi

İclasda işçi qrupunun Fəaliyyət Planı çərçivəsində 2026-cı ilin 3-cü rübü ərzində görülmüş işlər müzakirə olunmuş və qarşıda qoyulan məqsədlərə nail olmaq üçün görülməli tədbirlər ətrafında fikir mübadiləsi aparılmışdır. Məruzəçilər:

1. Büdcə şəffaflığı indikatoru, Açıq Büdcə İndeksi və Ortamüddətli Xərclər Çərçivəsi barədə - Nihad Fərəcov;
2. Büdcə şəffaflığı və təbii resursların idarə edilməsi indeksləri barədə - Müşviq Bayramov;
3. Dövlət tənzimlənməsi yükü, Qlobal İnnovasiyalar İndeksi və Leqatum Rifah İndeksi barədə - Vüqar Abdullayev;
4. İnflyasiya indikatoru barədə - Elçin Güləliyev;
5. Borc dinamikası indikatoru barədə - Nərgiz Mehdiyeva;
6. İqtisadi keyfiyyət indikatoru barədə - İlahə Baxışova Tahirli;
7. Təbii resursların idarə edilməsi indeksi barədə - Rövşən Cabbarov.

Eşidildi

İşçi qrupunun rəhbəri, Mərkəzi Bankın baş direktoru **Azər Ələsgərov** iclası açaraq, gündəlikdəki məsələlər barədə məlumat verdi.

Azər Ələsgərov çıxış nitqi üçün sözü Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin İqtisadi islahatların monitorinqi, koordinasiyası və qiymətləndirilməsi sektorunun müdiri, Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın Katibliyinin rəhbəri **Vüsal Şıxəliyevə** təqdim etdi.

Vüsal Şıxəliyev işçi qrupu çərçivəsində indiyədək görülən işlərin əhəmiyyətini vurğulayaraq, qarşıya qoyulan vəzifələrin vaxtında və keyfiyyətlə yerinə yetirilməsinin vacibliyini qeyd etdi. O, işçi qrupunun fəaliyyətinin səmərəli təşkili, müəyyən edilmiş prioritetlər üzrə işlərin əlaqələndirilməsi və qarşıdakı dövr üçün nəzərdə tutulan tədbirlərin sistemli şəkildə planlaşdırılmasının əhəmiyyətinə diqqət çəkdi.

Bununla yanaşı, Vüsal Şıxəliyev Effektiv idarəetmə və makroiqtisadi göstəricilər üzrə işçi qrupunun 2027-ci il üçün fəaliyyət planı layihəsinin hazırlanmasının vacibliyini bildirdi. O, fəaliyyət planının hazırlanması zamanı müvafiq istiqamətlər üzrə prioritetlərin, həyata keçirilməsi nəzərdə tutulan tədbirlərin və gözlənilən nəticələrin nəzərə alınmasının, eləcə də tədbirlərin ardıcıl və əlaqələndirilmiş şəkildə müəyyənləşdirilməsinin əhəmiyyətini vurğuladı.

Vüsal Şıxəliyev, həmçinin fəaliyyət planı layihəsinin aidiyyəti dövlət qurumları ilə müzakirə edilərək razılaşdırılmasının və bununla bağlı müvafiq işlərin vaxtında tamamlanmasının zəruriliyini qeyd etdi. Sonda layihənin razılaşdırılmış qaydada Komissiyanın Katibliyinə təqdim edilməsinin nəzərə alınmalı olduğunu bildirdi.

Daha sonra A.Ələsgərov Açıq Büdcə İndeksi ilə bağlı görülmüş işlər barədə məlumat vermək üçün sözü Maliyyə Nazirliyi Makroiqtisadi təhlil və fiskal proqnozlaşdırma şöbəsi, Ortamüddətli büdcə çərçivəsi və fiskal risklər sektorunun aparıcı məsləhətçisi **Nihad Fərəcova** verdi. Makroiqtisadi təhlil və fiskal proqnozlaşdırma şöbəsinin aparıcı məsləhətçisi N.Fərəcov bildirdi ki, cari ilin 3-cü rübü ərzində fəaliyyət planının "Büdcə şəffaflığı" indikatoru üzrə işlər davam etdirilmişdir. Belə ki, müvafiq dövr üzrə Açıq Büdcə İndeksi metodologiyasına uyğun olaraq bir sıra məlumatlar Maliyyə Nazirliyinin rəsmi internet səhifəsində yerləşdirilmişdir. Bu məlumatlara 2026-cı ilin 1-ci yarısı üzrə dövlət və icmal büdcələrinin operativ icrasına dair təqdimat və dövlət borcuna dair statistik bülleten, 2026-cı il üzrə icmal büdcənin operativ aylıq icra göstəriciləri, büdcənin vergi və qeyri-vergi gəlirlərinin faktiki ümumi məbləği, hər iki kateqoriyanın daxilolma mənbələri üzrə göstəriciləri, funksional və iqtisadi təsnifatların paraqrafları üzrə dövlət büdcəsinin xərclərinin aylıq icra göstəriciləri, dövlət borcu üzrə faiz ödənişləri, eləcə də xalis borclanma göstəriciləri, "2027-ci ilin dövlət və icmal büdcələrinin ilkin göstəricilərinə dair Açıqlama" sənədi aiddir. Eyni zamanda Maliyyə Nazirliyi tərəfindən ilk dəfə olaraq icra olunan büdcəyə dair – Azərbaycan Respublikasının 2025-ci il dövlət və icmal büdcələrinin icrasını əks etdirən "Vətəndaşın büdcə bələdçisi" hazırlanmış və dərc olunmuşdur. "2026-cı ilin dövlət və icmal büdcələrinin yarımillik icrasına dair arayış və ilin sonuna olan gözləntilər sənədi ("Mid-year review") Açıq Büdcə İndeksi meyarlarına uyğun olaraq hazırlanaraq cari ilin avqust ayında dərc edilmişdir. Digər tərəfdən, büdcə təqviminə uyğun olaraq hazırlanmış 2027-2030-cu illər üzrə Ortamüddətli Xərclər Çərçivəsi ("Medium Term Expenditures Framework") sənədi və əlavələri Maliyyə Nazirliyi tərəfindən Nazirlər Kabinetinə təqdim edilmişdir. Qanunvericiliyə uyğun olaraq Maliyyə Nazirliyi Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla, OMXÇ-ni cari ilin oktyabrın 15-dək özünün rəsmi internet səhifəsində yerləşdirir. Maliyyə Nazirliyin rəhbərliyi və İctimai Şuranın üzvləri ilə 2027-ci ilin dövlət və icmal büdcələrinin layihələri müzakirə edilmişdir. Görüşdə həmçinin İctimai Şuranın fəaliyyətinin səmərəli təşkili, büdcə prosesinin ictimai müzakirələrə açıq olması və dövlət maliyyəsinin idarə olunması sahəsində vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın daha da inkişaf etdirilməsi ilə bağlı fikir mübadiləsi aparılmışdır.

Növbəti mərhələlərdə büdcə proseslərində rəqəmsal həllərin tətbiqinin genişləndirilməsi, büdcə məlumatlarının əlçatanlığının artırılması və ictimai iştirakçılığın gücləndirilməsi istiqamətində təkmilləşdirmə tədbirlərinin görülməsi davam etdiriləcəkdir.

Daha sonra Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) İcraçı direktorunun müavinin müşaviri **Müşviq Bayramov** "Büdcə şəffaflığı" indikatoru və "Təbii resursların idarə edilməsi" indeksi çərçivəsində görülən işlər barədə məlumat verdi. 2026-cı il üzrə fəaliyyət planının icrası çərçivəsində cari ilin 9 ayı ərzində Büdcə şəffaflığının və ictimai hesabatlılığın artırılması məqsədilə Fondun gəlirləri, xərcləri, aktivləri və investisiya fəaliyyətinin nəticələrinə dair məlumatların mütəmadi olaraq ictimaiyyətə açıqlanması, büdcə proqnozlarının və müxtəlif neft qiyməti ssenariləri üzrə hesablamaların icmal büdcə sənədlərində əks etdirilməsi, habelə kənar dövlət maliyyə auditinin nəticələrinin dərc edilməsi qeyd edildi. Eyni zamanda, Tədbirlər Planında nəzərdə tutulduğu kimi, Fondun fəaliyyəti haqqında ictimai məlumatlılığın artırılması istiqamətində tələbələr üçün infosessiyaların və maarifləndirici tədbirlərin təşkil edildiyini bildirdi.

Resursların İdarə Edilməsi İndeksi (RGİ) üzrə tədbirlərin icrası çərçivəsində Fondun investisiya fəaliyyətində ətraf mühit, sosial və idarəetmə (ƏSİ) prinsiplərinin mərhələli tətbiqinin davam etdirildiyini, bərpa olunan enerji və dayanıqlı infrastruktur sahələrinə investisiya imkanlarının genişləndirildiyini, eləcə də beynəlxalq tərəfdaşlarla əməkdaşlığın gücləndirildiyini diqqətə çatdırdı. Bununla yanaşı, Resursların İdarə Edilməsi İndeksi üzrə Azərbaycanın mövqeyinin yaxşılaşdırılması məqsədilə ətraf mühitə təsirin qiymətləndirilməsi və ətraf mühitin mühafizəsi sahəsində qanunvericiliyə dəyişikliklərinin qəbulunun sürətləndirilməsinin vacibliyi vurğulandı, indekslə bağlı digər təşkilati məsələlərə toxunuldu.

Daha sonra dövlət tənzimlənməsi yükü və tənzimləmə keyfiyyəti, Qlobal İnnovasiyalar İndeksi və Leqatum Rifah İndeksi çərçivəsində görülmüş işlər barədə məlumat vermək üçün söz İqtisadiyyat Nazirliyinin Makroiqtisadi təhlil və proqnozlaşdırma şöbəsinin müdir müavini **Vüqar Abdullayevə** verildi. Vüqar Abdullayev bildirdi ki, 2026-cı ilin 3-cü rübü ərzində də "Effektiv idarəetmə və makroiqtisadi göstəricilər" işçi qrupunun 2026-cı il üçün Fəaliyyət Planında İqtisadiyyat Nazirliyi üzrə müəyyən edilmiş tədbirlərin icrası davam etdirilmişdir. O, bildirdi ki, dövlət tənzimləmələrinin optimallaşdırılması istiqamətində görülən işlərin və sahibkarlar üçün yaradılan imkanların kommunikasiyası ilə əlaqədar olaraq İqtisadiyyat Nazirliyinin rəsmi internet səhifəsi, sosial media resursları, "Azərbaycan iqtisadiyyatı" kanalları və KİV vasitəsilə davam etdirilib. Vətəndaşların və sahibkarların məlumatlandırılması, eləcə də müraciətlərin 195-1 Çağrı Mərkəzi vasitəsilə operativ cavablandırılması təmin edilmişdir. Dövlət qurumları tərəfindən sahibkarlıq subyektlərinə göstərilən xidmətlərin zəruriliyinin, hüquqi uyğunluğunun, xidmətə görə ödənişlərin əsaslılığının və xidmət keyfiyyətinin qiymətləndirilməsi üçün müəyyən edilmiş meyarlar ölçüləbilənlik prinsipi əsasında təkmilləşdirilmiş və 2026-cı ilin may ayında İşçi qrupda təmsil olunan aidiyyəti dövlət qurumlarına göndərilmişdir. Daxil olmuş rəy və təkliflər əsasında layihə təkmilləşdirilmiş və bununla bağlı yaradılmış işçi qrupun cari ilin iyun ayında keçirilmiş iclasında iştirakçıların səs çoxluğu ilə meyarların qəbul edilməsi qərara alınmışdır. Qeyd olunan tapşırıqlar üzrə aparılmış təhlillər, hazırlanmış meyarlar və Tədbirlər Planı layihəsi aidiyyəti üzrə ümumiləşdirilərək 2026-cı ilin iyun ayında müvafiq məktubla Nazirlər Kabinetinə təqdim olunmuşdur.

Vüqar Abdullayev, Qlobal İnnovasiya İndeksinin müvafiq indikatorları üzrə ölkəmizin mövqeyinin yüksəldilməsi istiqamətində müəyyən edilmiş, regionlarda yeni sənaye parklarının yaradılması tədbiri barədə məlumt verdi. O bildirdi ki, cari ilin avqustun ayında Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin iştirakı ilə Naxçıvan Sənaye Parkının təməlqoyma mərasimi həyata keçirilmişdir. Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərmanı ilə Gəncə şəhərinin və Şəmkir rayonunun ərazisində Qərb Sənaye Parkı yaradılmış və onun fəaliyyətinin təşkili, idarə edilməsi və inkişafı ilə bağlı tədbirlərin həyata keçirilməsi İqtisadi

Zonaların İnkişafı Agentliyinə həvalə edilmişdir. Hazırda Qərb Sənaye Parkının yaradılması, rezidentlərin fəaliyyətinin təşkili və zəruri infrastrukturun formalaşdırılması istiqamətində tədbirlər davam etdirilir. Eyni zamanda V.Abdullayev dövlət tənzimlənməsi yükü göstəricisinin yaxşılaşdırılması istiqamətində görülmüş işlərdən danışaraq bildirdi ki, İqtisadiyyat Nazirliyinin təşəbbüsü ilə sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılma müddəti 2027-ci il yanvarın 1-dək artırılmışdır. O, bildirdi ki, 2026-cı ilin 3-cü rübü ərzində də birbaşa xarici investisiyaların cəlb edilməsinin stimullaşdırılması məqsədilə sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında hüquqi bazanın dərinləşdirilməsi istiqamətində müvafiq tədbirlərin görülməsi davam etdirilmişdir. Belə ki, 2026-cı ilin 25-26 sentyabr tarixlərində Bakıda İkinci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu (2nd Azerbaijan International Investment Forum – "AIIF 2026") keçirilib.İqtisadiyyat Nazirliyi və "The European House – Ambrosetti & TEHA Group"un strateji tərəfdaşlığı ilə keçirilən Forum müxtəlif ölkələri təmsil edən dövlət rəsmilərini, qlobal investorları, beynəlxalq maliyyə institutlarının, beyin mərkəzlərinin nümayəndələrini və biznes liderlərini bir araya gətirib. İkinci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu çərçivəsində beynəlxalq investorlar və tərəfdaş şirkətlərlə ümumi dəyəri 10,8 milyard ABŞ dolları olan investisiya layihələrini əhatə edən 23 sənəd imzalanıb. 2026-cı ilin iyun ayında keçirilmiş Bakı Enerji Həftəsi çərçivəsində elan edilmiş layihələr də nəzərə alınmaqla, birgə layihələrin ümumi dəyəri 16,7 milyard ABŞ dollarına çatır. İmzalanmış sənədlər süni intellekt, enerji, o cümlədən bərpa olunan enerji, tikinti, rəqəmsal iqtisadiyyat, sənaye, kənd təsərrüfatı, əczaçılıq, maliyyə, su təsərrüfatı və digər istiqamətləri əhatə edir. Bu, investorların Azərbaycana artan inamının və ölkəmizin investisiya məkanı kimi cəlbediciliyinin yüksəldiyinin aydın göstəricisidir. Bu miqyasda investisiyalar iqtisadiyyatın şaxələndirilməsinə, yeni texnologiyaların və innovasiyaların tətbiqinə, əlavə dəyərin və məşğulluğun artırılmasına mühüm töhfələr verir. O, bildirdi, İqtisadi Şurada aparılmış müzakirələrə əsasən, ortamüddətli dövr üzrə prioritet sahələr qismində dağ-mədən (filiz) və metallurgiya (qara, əlvan) kimya (downstream of downstream), əczaçılıq, aqrar istehsal/emal, pambıq emalı (iplik, parça və s.), nəqliyyat-logistika, turizm, İKT-data mərkəz və tikinti, həmçinin bütün sahələr üzrə kəsişən prioritetlər kimi rəqəmsallaşma və enerji müəyyən edilmişdir. Vüqar Abdullayev qeyd etdi ki, Qlobal İnnovasiya İndeksinin müvafiq indikatorları üzrə görülmüş işlərin nəticəsində açıqlanan son hesabata əsasən Hökumətin effektivliyi indikatoru üzrə ölkəmizin mövqeyi 73-cü yerdən 71-ci yerə, Tənzimləmə keyfiyyəti üzrə 78-ci yerdən 63-cü yerə, Ümumi kapital yığımı (investisiyaların ÜDM-ə nisbəti) üzrə 127-ci yerdən 115-ci yerə yüksəlib. Leqatum Rifah İndeksi göstəricisinin yaxşılaşdırılması istiqamətində məlumat verərək V. Abdullayev bildirdi ki, hesabat dövründə ölkənin investisiya imkanlarının təqdim edilməsi istiqamətində sistemli işlər həyata keçirilmişdir. Bu çərçivədə ölkə təqdimatı, investisiya bələdçisi və investisiya layihələri kataloqu hazırlanmış və mütəmadi yenilənmişdir. İnvestorlar üçün vahid məlumat platforması kimi nəzərdə tutulan invest.gov.az portalı vasitəsilə investisiya imkanları təqdim edilmişdir. 2026-cı ilin ötən dövrü ərzində birbaşa xarici investisiyaların cəlb edilməsinin stimullaşdırılması məqsədilə sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında hüquqi bazanın dərinləşdirilməsi istiqamətində müvafiq tədbirlər davam etməkdədir. Belə ki, Azərbaycanla İtaliya, Oman, Pakistan, Səudiyyə Ərəbistanı, Vyetnam, Yaponiya, Qazaxıstan və Slovakiya, Mərakeş, Braziliya, Uruqvay, Sudan və Bəhreyn arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında Saziş layihəsi üzərində işlər aparılmışdır.

Daha sonra inflyasiya indikatoru üzrə görülmüş işlər barədə məlumat vermək üçün söz Mərkəzi Bankın Pul siyasəti departamentinin direktor müavini **Elçin Güləliyev** verildi.

E.Güləliyev bildirdi ki, 2026-cı ilin III rübündə illik inflyasiya proqnozlaşdırılan trayektoriya üzrə hərəkət etmiş və hədəf daxilində qalmışdır. Dövlət Statistika Komitəsinin məlumatına əsasən 2026-cı ilin sentyabr ayında 12 aylıq inflyasiya 5.5% təşkil etmişdir. Mərkəzi Bankın pul siyasəti monetar şərait vasitəsilə inflyasiyanın hədəf daxilində saxlanılmasına yönəldilmişdir. AMB tərəfindən aparılan qiymətləndirmələrə görə qiymətlərin ümumi səviyyəsində artım, əsasən xarici mənşəli xərc amillərindən qaynaqlanmışdır. Ümumilikdə, son 1 ildə aparılan monitorinqlərə görə inflyasiya gözləntiləri sabitləşmişdir. Xarici sektor göstəricilərinin əlverişli dinamikası, valyuta bazarında tələbin əhəmiyyətli dərəcədə azalması və təklifin artması şəraitində il ərzində Mərkəzi Bank tərəfindən valyuta alışları həyata keçirilmişdir. Nəticədə, cari ilin 9 ayında Mərkəzi Bankın valyuta ehtiyatları 33% artaraq 15,4 mlrd. ABŞ dollarına çatmışdır. Bu da qiymət və makroiqtisadi sabitliyin əsas nominal lövbəri olan məzənnə sabitliyini dəstəkləyir. Hesabat dövründə pul siyasəti alətləri maliyyə bazarlarında gedən proseslər və bank sisteminin likvidlik mövqeyi nəzərə alınmaqla tətbiq edilmişdir. Pul siyasəti hədəflərinə nail olmaq üçün açıq bazar əməliyyatları və daimi imkan alətlərindən adekvat istifadə olunmuşdur. Pul siyasəti alətləri avtonom amillərin monetar şəraitə təsirlərinin neytrallaşdırılmasına xidmət etmişdir. Bank sektorunun struktur likvidlik profisiti ilin əvvəlindən etibarən əhəmiyyətli dərəcədə artmış və hazırda 6 mlrd. manat ətrafında qiymətləndirilir. Mərkəzi Bank sterilizasiya əməliyyatlarının həcmini müvafiq olaraq artırmışdır. Artan likvidlik şəraitində təminatsız pul bazarında faizlər bir qədər azalmağa meyil etmişdir. Bununla belə pul siyasəti alətlərinin effektiv tətbiqi banklararası təminatsız pul bazarında qısamüddətli faizlərin Mərkəzi Bankın faiz dəhlizi daxilində formalaşmasını təmin etmişdir. Həyata keçirilən pul siyasəti tədbirlərinin iqtisadi subyektlər tərəfindən düzgün qavranılması inflyasiya gözləntilərinin idarə olunmasında mühüm rol oynayır.

Daha sonra Maliyyə Nazirliyinin nümayəndəsi **Nərgiz Mehdiyevanın** "Borc dinamikası" indikatoru barədə çıxışı dinlənildi. N. Mehdiyeva bildirdi ki, Azərbaycan Respublikası beynəlxalq reytinq agentlikləri ilə əməkdaşlıq etməkdədir. Həmin reytinq agentlikləri tərəfindən ölkəmizin suveren kredit reytinqi mütəmadi olaraq qiymətləndirilməkdədir. Əməkdaşlıq etdiyimiz Moody's Ratings agentliyi tərəfindən ən son qiymətləndirmə 22 iyul 2026-cı il tarixində olmuş, kredit reytinqi "Baa3" (investisiya reytinqi) səviyyəsində, proqnoz isə "Müsbət" olaraq qiymətləndirilmişdir. Moody's Ratings agentliyinin bildirdiyinə görə Azərbaycanın iri həcmli xarici aktivləri dövlətin xalis kreditor mövqeyini təmin etməkdə və maliyyə dayanıqlığını gücləndirməkdədir. Daha bir əməkdaşlıq etdiyimiz reytinq agentliyi olan Fitch Ratings 05 iyun 2026-cı il tarixli hesabatında ölkənin kredit reytinqini "BBB-" (investisiya reytinqi) səviyyəsində, proqnozu isə "Sabit" olaraq qiymətləndirmişdir. Fitch Ratings Azərbaycanın xarici aktivlər mövqeyini yüksək qiymətləndirməkdədir. Hal-hazırda əməkdaşlığını dayandırdığımız S&P Ratings agentliyi 05 dekabr 2025-cı il tarixli hesabatında ölkənin kredit reytinqini "BB+/B", proqnozu isə "Müsbət" olaraq qiymətləndirmişdir. Agentlik, Azərbaycanın suveren kredit reytinqi üzrə müqayisə olunan ölkələr arasında ən güclü suveren balans göstəricilərindən birinə malik olduğunu və Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF/SOFAZ) əhəmiyyətli həcmdə aktivləri, dövlət sektorunun xalis aktiv mövqeyinin davamlı olaraq müsbət olması və dövlət borcunun aşağı səviyyədə qalmasının ölkənin iqtisadi dayanıqlığını gücləndirdiyini bildirmişdir. Bunlarla yanaşı qeyd etmək istərdik ki, 2026-cı il məlumatlarına əsasən Azərbaycan Respublikasının dövlət borcu Ümumi Daxili Məhsulun (ÜDM) 18,7 faizini təşkil etmişdir. Beləliklə, Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və

uzun müddət üçün Strategiya sənədi ilə müəyyən olunmuş dövlət borcunun ÜDM-ə nisbət göstəricisinin 30,0%-dən çox olmaması üzrə yuxarı hədlər gözlənilmişdir.

Daha sonra söz Dövlət Statistika Komitəsinin Milli hesablar və makroiqtisadi göstəricilər statistikası şöbəsinin müdiri müavini **Alidə Alpaşayevaya** verildi. A.Alpaşayevaya bildirdi ki, ÜDM göstəricilərinin 2025-ci ilin ilkin və 2024-cü ilin dəqiqləşdirilmiş məlumatları Azərbaycan Respublikasının Nazirlər Kabineti ilə razılaşdırılmaqla Dövlət Statistika Komitəsi kollegiyasının qərarı ilə təsdiq edilmiş "2026-cı il üçün Statistik işlər proqramı"nda nəzərdə tutulmuş müddətlərdə hazırlanaraq Komitənin rəsmi internet səhifəsində dərc edilmiş (https://www.stat.gov.az/source/system_nat_accounts/), aidiyyəti dövlət qurumlarına, beynəlxalq təşkilatlara, o cümlədən Beynəlxalq Valyuta Fonduna göndərilmiş, BVF-nin "World Economic Outlook" məlumat bazasında ölkənin ÜDM göstəriciləri ilə bağlı yerləşdirilmiş məlumatlar rəsmi statistik məlumatlarla müqayisə edilərək yoxlanılmışdır. Alıcılıq qabiliyyəti pariteti (AQP) əsasında hesablanan məlumatların müvafiq metodologiyaya uyğun olaraq düzgün hesablandığı müəyyən edilmişdir.

Fəaliyyət Planının 10-cu bəndində "Təbii resursların idarə edilməsi indeksi" indikatorunun "5. Hasilat sənayesində şəffaflıq üzrə hesabatlılığın təmin edilməsi" üzrə görülən işlərin davamlı xarakter daşıdığını nəzərə alaraq, hasilat sənayesində fəaliyyət göstərən müəssisə və təşkilatlara müraciət ünvanlanmış və dövlət idarəçiliyində müasir texnologiyalardan istifadə etməklə aparılan işin səmərəliliyini artırmaq, məlumatlardan istifadə imkanlarını sadələşdirmək, bu kontekstdə şirkətlərin üzərinə düşən informasiya yükünü azaltmaq, məlumatların toplanılması mexanizmlərinin səmərəliliyini və operativliyini artırmaq məqsədilə məlumatların elektron qaydada toplanılmasını həyata keçirmək üçün hazırlanmış proqram təminatı vasitəsilə 2025-ci il üzrə əldə edilmiş məlumatlar 2026-cı ilin sentyabr ayında "Hasilat Sənayesində Şəffaflıq" portalında yerləşdirilmişdir.

Daha sonra söz Mərkəzi Bankın Maliyyə məlumatlılığı və peşəkar inkişaf şöbəsinin rəisi **İlahə Baxışovaya** verildi. İ.Baxışova bildirdi ki, tapşırığın icrası çərçivəsində cari ilin ilk rübündə maliyyə sektoru assosiasiyaları ilə birgə illik maliyyə savadlılığı üzrə maarifləndirmə planları hazırlanmışdır. Bu yanaşma vasitəsilə maliyyə institutlarının maarifləndirmə fəaliyyətlərində daha fəal iştirakı təmin edilir və sektor üzrə təşəbbüslər vahid istiqamətdə əlaqələndirilir. Cari rüb ərzində də assosiasiyalar və üzv təşkilatlarla birlikdə müvafiq maarifləndirmə işləri aparılmış və artıq üçüncü rüb üzrə həyata keçirilmiş tədbirlərin hesabatlılığı Mərkəzi Banka təqdim edilmişdir. Fəaliyyətlər çərçivəsində həm əhalinin ümumi maliyyə savadlılığı biliklərinin artırılması istiqamətində tədbirlər həyata keçirilir, digər tərəfdən isə sektorlar üzrə aktual və spesifik mövzulara dair maarifləndirmə işləri aparılır. Eyni zamanda, sahibkarların maliyyə biliklərinin artırılması məqsədilə Mərkəzi Bank tərəfindən Azərbaycan Banklar Assosiasiyası və Kiçik və Orta Biznesin İnkişafı Agentliyi ilə əməkdaşlıq çərçivəsində hazırlanmış "Biznesin maliyyələşdirilməsi alətləri" onlayn kursunun təşviqi istiqamətində işlər görülmüşdür. Assosiasiyalar və digər tərəfdaş qurumlar vasitəsilə kurs haqqında məlumatların hədəf auditoriyaya çatdırılması və potensial iştirakçıların cəlb olunması təmin edilmişdir. Bununla yanaşı, maliyyə savadlılığının artırılması istiqamətində fəaliyyətlər Mərkəzi Bankın Elm və Təhsil Nazirliyi, eləcə də Dövlət Məşğulluq Agentliyi ilə imzalanmış fəaliyyət planları çərçivəsində də müxtəlif hədəf qruplarını əhatə edən maarifləndirmə tədbirlərinin icrası davam etdirilir. Növbəti mərhələdə fəaliyyətlərin icrası ilə yanaşı, monitorinqi və nəticələrinin

qiymətləndirilməsi davam etdiriləcək, əldə edilmiş nəticələr əsasında gələcək tədbirlər müəyyənləşdiriləcəkdir.

Sonra söz çıxış üçün Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Dövlət Ekoloji Ekspertiza Agentliyinin baş hüquqşünası **Rövşən Cabbarova** verildi. R.Cabbarov bildirdi ki, Azərbaycan Respublikasının Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyası "Effektiv idarəetmə və makroiqtisadi göstəricilər" işçi qrupunun Fəaliyyət planına uyğun olaraq "Təbii Resursların İdarə Edilməsi" indeksinin yaxşılaşdırılması çərçivəsində Ekologiya və Təbii Sərvətlər Nazirliyində "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" və "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanun layihəsi və digər əlaqəli sənədlər aidiyyəti qurumlarla razılaşdırılaraq Azərbaycan Respublikasının Prezident Administrasiyasına təqdim edilmişdir. "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" və "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanun layihəsi hazırda Milli Məclisdə baxılmaqdadır. "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanun layihəsi hazırda Administrasiyada baxılır.Daha sonra A.Ələsgərov "Effektiv idarəetmə və makroiqtisadi göstəricilər" işçi qrupunun mövcud üzvlərinin siyahısına yenidən baxılması zəruriliyini diqqətə çatdırdı. O qeyd etdi ki, bu zərurət əsasən müvafiq dövlət təşkilatlarında aparılan kadr dəyişiklikləriłe əlaqədardır. O işçi qrupu üzvlərindən aidiyyatı üzrə dəqiqləşdirmələrin aparılmasını və işçi qrupunun katibliyinin məlumatlarındırılmasını xahiş etdi. Bu məsələnin müzakirəsi gedişində qeyri-hökumət təşkilatları üzvlərinin bundan sonra da işçi qrupunda təmsil olunmasının vacibliyini vurğuladılar.

Qərara alındı:

1. "Effektiv idarəetmə və makroiqtisadi göstəricilər" işçi qrupunun 2026-cı il üzrə Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin icrası davam etdirilsin. Tədbirlərin müəyyən edilmiş müddətlərdə və nəzərdə tutulan nəticələrə uyğun həyata keçirilməsi təmin edilsin, icra prosesində yaranan məsələlərin həlli istiqamətində zəruri tədbirlər görülsün. Eyni zamanda, Fəaliyyət Planı üzrə görülmüş işlərin və əldə edilmiş nəticələrin sistemli təhlil edilməsi və zərurət yarandıqda müvafiq məlumatların ümumiləşdirilərək təqdim olunması təmin edilsin.
2. İclas zamanı müzakirə edilmiş məsələlər, irəli sürülmüş təkliflər və səsləndirilmiş rəylər nəzərə alınmaqla, "Effektiv idarəetmə və makroiqtisadi göstəricilər" işçi qrupunun 2027-ci il üzrə Fəaliyyət Planının ilkin layihəsinin hazırlanmasına başlanılsın. Layihədə qarşıdakı il ərzində həyata keçirilməsi nəzərdə tutulan tədbirlər, həmin tədbirlərin icra istiqamətləri, gözlənilən nəticələr və icraya məsul dövlət qurumları müəyyən edilsin. İşçi Qrupun üzvləri aidiyyatı üzrə 2027-ci ilə Fəaliyyət Planına dair təkliflərini ümumiləşdirilməsi üçün 20 noyabr 2026-cı il tarixinədək İşçi Qrupunun Katibliyinə təqdim etsinlər.
3. "Effektiv idarəetmə və makroiqtisadi göstəricilər" işçi qrupunun mövcud üzvlərinin siyahısına yenidən baxılsın. Bu zaman işçi qrupunun fəaliyyət istiqamətləri, qarşıya qoyulmuş vəzifələr və aidiyyəti dövlət qurumlarının səlahiyyətləri nəzərə alınmaqla, üzvlərin tərkibinin aktuallığı və təmsilçilik səviyyəsi qiymətləndirilsin. İşçi Qrupunun

üzvləri tərkibə dair təkliflərini, o cümlədən yeni üzvlərin daxil edilməsi və ya mövcud üzvlərin əvəzlənməsi ilə bağlı təkliflərini İçşi Qrupunun katibliyinə təqdim etsinlər. İşçi Qrupunun Katibliyi yeni tərkibə dair təklifləri ümumiləşdirərək razılaşdırılması üçün Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın rəhbərliyinə göndərilməsinə dəstək göstərsin.

İşçi qrupun rəhbəri: _____ Azər Ələsgərov

Katib: _____ Məcidxan Vəliməmmədov